"Məktəblilərarası Milli Hakatonun keçirilməsinə dair Təşkilat Komitəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 04.03.2025-ci il tarixli 3-29/3-2-103F/2025 nömrəli əmrinin 3.1-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli 2242 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 3.1.6-cı və 5.5.10-cu yarımbəndlərini rəhbər tutaraq **əmr edirəm:**

1. "Məktəblilərarası Milli Hakaton"un Əsasnaməsi (bundan sonra – Əsasnamə) təsdiq edilsin (əlavə olunur).

2. Elm və Təhsil Nazirliyinin müvafiq əmri ilə yaradılmış Təşkilat Komitəsinə tapşırılsın ki, Əsasnamənin tələblərinə əsasən "Məktəblilərarası Milli Hakaton"un təşkili ilə bağlı aidiyyəti tədbirlərin həyata keçirilməsini təmin etsin.

3. Elm və Təhsil Nazirliyinin Aparatının Vətəndaşlara xidmət və sənədlərlə iş şöbəsi (Rəşad Xanlarov) bu əmrin surətinin Nazirliyin aidiyyəti struktur bölmə və qurumlarına çatdırılmasını təmin etsin.

4. Elm və Təhsil Nazirliyinin Aparatının İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsi (Səbuhi Rzayev) bu əmrin Elm və Təhsil Nazirliyinin rəsmi saytında yerləşdirilməsini və "Azərbaycan müəllimi" qəzetində dərc olunmasını təmin etsin.

5. Əmrin icrasına nəzarət nazir müavini Həsən Həsənliyə həvalə edilsin.

***Emin ƏMRULLAYEV,***
***Azərbaycan Respublikasının elm və təhsil naziri***
***21 aprel 2025-ci il***
***3-29/3-2-201F/2025***